TÜRKİYƏ

Zaman-zaman Azərbaycan torpaqları rusların köməyi ilə Ermənistana verilmişdir, Azərbaycan ərazilərində özlərinə dövlət quran ermənilər burada amansız soyqırımı siyasəti həyata keçirmişlər. Tarix boyu kəndlərin yandırılaraq dağıdılması, minlərlə insanın qətlə yetirilməsi, tarixi və mədəniyyət abidələrimizin məhv edilməsi, erməni vandallarının Azərbaycan türklərinə qarşı soyqırımının və düşmənçiliyinin bariz nümunəsidir.

Saxtakarlığı sevməyən tarix

XVII əsrdən başlayaraq çar Rusiyasının xarici siyasətində isti dənizlərə çıxmaq siyasəti geniş vüsət alıb. Xüsusən də Qafqazla bağlı siyasəti böyük əhəmiyyət kəsb edib.

XIX əsrdə əsas məqsəd Qafqaza nəzarət etmək olub. 1813-cü ildə Tiflis ilə imzaladığı "Gülüstan" müqaviləsi, 1828-ci ildə İranla bağladığı "Türkmənçay" müqaviləsindən sonra Qafqazın işğalını başa çatdırıb.

"Türkmənçay" müqaviləsi Azərbaycan türkləri üçün 200 ilə yaxın ayrılığın başlanğıcı olmaqla yanaşı, əsrlər boyu yaşadıqları ata-baba yurdlarından məcburi köçləri olub. "Türkmənçay" müqaviləsinin şərtlərinə görə İrəvan və Naxçıvan xanlıqları Rusiyaya verilib. Müqavilə imzalandıqdan dərhal sonra İranda yaşayan ermənilər İrəvan xanlığına köç etməyə başlayıblar. Bunun üçün onlara hər cür şərait yaradılıb.

İranın Rusiya ilə müharibədə məğlub olması nəticəsində İrəvan xanlığında Azərbaycan türklərinin yaşadıqları 420 kənd xarabalığa çevrilib. Bu kəndlərin çoxu rus ordusu ilə əməkdaşlıq edən erməni quldur dəstələri tərəfindən talan edilib. Qırxbulaqda 32, Zəngibasarda 8, Gərnibasarda 48, Vedibasarda 33, Dərəkənd Parçenisdə 8, Saatlıda 5, Talində 35, Sərdarabadda 9, Abaranda 12, Dərəçiçək, Göyçədə 90, Dərələyəzdə isə 46 kənd xəritədən silinib. Bu bölgələrdə 105 kəndə İrandan köçən ermənilər yerləşdirilib.

Beləliklə erməni vəhşilikləri başlayıb. 1905-ci ilin iyununda silahlı erməni quldur dəstələri Eçmiədzin quberniyasının Təkiyə kəndinə hücum edərək kənd sakinlərini qətlə yetiriblər, çox az adam canını qurtara bilib. Bir neçə gün ərzində Eçmiədzin vilayətində 9 türk kəndi talan edilərək boşaldılıb. Gümrü və ətraf kəndlərdə yaşayanlar da erməni qırğınından xilas ola bilməyiblər. Ermənilər Sağqarsuya hücum edərək qadın, uşaq, qoca demədən insanları qırmağa başlayıblar. 1905-1907-ci il qırğınından xilas ola bilən insanlar İran və Türkiyəyə köçüblər. Silahlı erməni quldur dəstələri işğal etdikləri hər kəndə Azərbaycan türklərini qətlə yetirib qovalayıblar. Onların əsas məqsədi bölgədə Azərbaycan türklərinin sayını azaltmaq olub.

1905-1906-cı illər qırğınları nəticəsində minlərlə Azərbaycan türkü öldürülüb və ya köçkün düşüb. Erməni quldur dəstələri ilə rus əsgərlərinin birgə fəaliyyət planı gözlənilən nəticəni verməsə də İrəvan quberniyasının bir çox türk kəndləri işğal olunub. Ermənilər 1918-ci ildən yarımçıq qalmış planlarını təkrar həyata keçirməyə başlayıblar.

Ermənistan hökuməti çalışırdı ki, Azərbaycan türklərinə məxsus olan hər şeyi tarix səhifəsindən silsin. 1935-ci ilə qədər Ermənistanda kənd, qəsəbə və coğrafi yer adlarının 95 faizi Azərbaycan türkcəsində olub. Çar Rusiyası dövründə hazırlanmış xəritələr bu iddianı təsdiq edir. Azərbaycan türklərini öz keçmişlərindən uzaqlaşdırmaq üçün əvvəlcə onların yaşadıqları bölgələrin adlarını dəyişdirmək lazım idi və ermənilər bu prosesə artıq XIX əsrdə başlamışdılar. Məsələn, 1828-ci ildə Rəvan-Erivan, 1837-ci ildə Kəvər-Nor-Bəyazit, 1840-cı ildə Gümrü-Aleksandropola dəyişdirilib.

Azərbaycan türklərinin məcburi köçü 1905-1906-cı illərdə başlayıb. 1918-1920-ci, 1948-1953-cü, 1988-1989-cu illərdə davam etdirilib.

Ermənistan hökuməti əhalinin az olduğunu iddia edərək xaricdə yaşayan erməniləri burada yerləşdirmək üçün 1945-ci ildən geniş təbliğat işlərinə başlayıb. "Əhali artımı proqramı" "uğurla" yekunlaşdırılıb. Ermənistandan zorla köçürülən Azərbaycan türklərindən daha az erməni qəbul edilib. Məqsəd Azərbaycan türklərinə qarşı məcburi köç planını həyata keçirməkdən və xaricdə yaşayan ermənilər İrəvanda məskunlaşdırmaqdan ibarət olub. Ermənilərin əsas niyyəti türksüz Ermənistan qurmaq idi ki, buna nail oldular...

Azərbaycan kənd və şəhər adlarının dəyişdirilməsi ilə paralel olaraq Ermənistan hökuməti Stalinin kommunizm üçün bütün təhlükələri aradan qaldırmaq siyasətini əsas gətirərək 1930-1937-ci illərdə minlərlə Azərbaycan türkünü Mərkəzi Asiyaya sürgün edib və onlarla kənd tamamilə boşaldılıb.

1935-ci ildə öz doğma yurdundan sürgün edilən insanlardan biri də **əslən irəvanlı, hazırda Balıkesir vilayətində yaşayan biologiya müəllimi Ersoy Bedirin** babası Xeyrullah Bedir olub.

Ersoy Bedirin babaları Hacı Əsədullah və Xeyrullah Bedir İrəvanda dünyaya gəliblər. Babaları haqqında danışan E.Bedir deyir: "Babam (anamın atası) Hacı Əsədullah 1874-cü ildə İrəvanda dünyaya gəlib. Erməni qonşuları ilə heç bir sıxıntıları olmayıb, bir yerdə böyüyüblər. Amma İrandan, Suriyadan, Türkiyədən və başqa yerlərdən gətirilən ermənilər ruslara güvənərək babamgilə dinclik verməyiblər. Babam varlı olduğuna görə hər zaman işgəncəyə məruz qalıb. Gah dükanını talayıb, gah yandırıb, gah da heç nədən döyüblər.

Babam deyirdi ki, çox işgəncələr gördüm, amma doğma torpağımı hər şeydən üstün tutdum. Onun bizə danışdığı bir hadisəni isə heç vaxt unuda bilmirəm: "Hər gün səhər tezdən dükana gedib qapısını açardım, ətrafı süpürərdim. Bir gün dükanın yanında 17-18 yaşlarında bir erməni oğlanın zibil topladığını gördüm. Paltarları yırtıq-yırtıq, üzü sapsarı idi. Bəlli idi ki, acdır. Ona yaxınlaşdım və acsanmı deyə soruşdum. Üzümə baxdı və başını salladı. Onu dükanıma gətirdim və yemək verdim. Hətta gedəndə cibinə bir miqdar pul da qoydum. Çünki o zamanlar qıtlıq idi. Aradan zaman keçdi, ermənilər mənə dinclik vermirdilər, hər şeyimi əlimdən almaq istəyirdilər. Bir gün dükana bir erməni gəldi və dedi ki, səni qubernator çağırır. Pərişan halda getdim və düşündüm ki, hər şeyimi əlimdən alıb ya məni öldürəcək, ya da sürgün edəcəklər. Qubernatorun otağına girəndə qubernatorun ayağa qalxıb mənimlə salamlaşmasına təəccüb etdim. Məni tanıdın deyə soruşdu? Yox tanımadım. Mən sənin yemək və pul verdiyin zibil toplayan həmin oğlanam dedi. Sevincimdən dizlərim büküldü, bildim ki, məni öldürməyəcək. Qubernator mənə dedi ki, bu axşam sizin evə təftiş gələcək. Get evində nə varsa qızıl, pul, xalçalar hamısını qonşularda gizlət. Yoxsa hamısını əlindən alıb səni sürgün edəcəklər. Evə gəlib bütün qızıl və pullarımı qonşuda gizlətdim. Gecə evə təftiş gəldi və evdə heç nə tapmayınca məni rahat buraxdılar".

Babam Hacı Əsədullah çox inanclı insan olub. Xəlvəti şəkildə namazını da qılar, oruc tutarmış. Babam deyirdi ki, islamdan insanları uzaqlaşdırmaq üçün ruslar hər vasitəyə əl atırdılar. Onlar çox vaxt 8-9 yaşlı oğlan uşaqlarını toplayıb bir dama doldurub saatlarla ac-susuz saxlayır və deyirmişlər ki, Allaha dua edin sizə yemək, su göndərsin. Uşaqlar nə başa düşsün ki, bu bir İslamdan uzaqlaşma siyasətidir. Onlar nə qədər dua etsələr də, onlara yemək, su verən olmayıb. O zaman Lenin babanıza dua edin sizə istədiyinizi versin deyirlərmiş. Uşaqlar dua edən kimi onlara yemək və su verirlərmiş. Bu da uşaqların Leninə inanclarını artırırmış. Hətta uşaqlara evdə namaz qıldığını görüb bizə xəbər verənlərə mükafat veriləcəklərini də deyirlərmiş.

Babam bir gün yuxuda görüb ki, evlərini yandırırlar. Elə həmin gün qərar verib gecə ilə Türkiyəyə gediblər.

Babam Xeyrullah Bedir (atamın atası) İydəli kəndində yaşayıb (İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu). 1918-ci ildə 1000 nəfərdən ibarət əhalisi olan bu kənd erməni daşnak soyqırımı siyasəti qurbanlarının bariz nümunəsidir. 1922-ci ildə kəndə ancaq 87 nəfər dönə bilib, onlar da sıxışdırılıb çıxarılıb, kənd tamamilə ermənləşdirilib.

Babam kənddə təsərrüfat işləri ilə də məşğul olub. O, Azərbaycan türklərinə qarşı edilən haqsızlığa dözmürmüş. Heç kimsədən qorxmadan, çəkinmədən onlara qarşı edilən haqsızlığa qarşı çıxırmış. Elə ona görə də Sibirə sürgün ediblər. Babam deyirdi ki, bizi Sibirə aparan qatarda başımızın üstündə duran əsgər qazaxıstanlıydı. Ona dedim ki, sən Qazaxıstan türkü, mən də Azərbaycan türkü. Niyə ruslar biz türkləri birbirimizin əliylə ölümə məhkum edirlər. Bəs bizə hamınızın erməni olduğunuz haqqında məlumat veriblər. Əsgər babamın türk olduğunu bildikdən sonra gedib və türkmənistanlı bir əsgərlə geri dönüb. Və babamın Azərbaycan türkü olduğunu ona göstərib. Beləliklə üç türk birləşərək qatar stansiyada dayanan kimi qaçıblar. Kəndə gəldikdən sonra babam ailəsi və əsgərlərlə birlikdə Türkiyəyə gediblər. Babam İğdırda məskunlaşıb, əsgərlərin biri Amasiyaya, digəri isə Ərzincana gedib. Babam uzun illər həmin əsgərlərlə əlaqəni kəsməyib.

Hər iki babam dünyasını dəyişmədən öncə bizə vəsiyyət etmişdi ki, məzar daşlarına İrəvanlı olduqlarını yazdıraq. Biz onların hər ikisinin son vəsiyyətlərinə əməl etdik.

E.Bedir deyib ki, erməni vəhşiliyi tez-tez müzakirə olunmalı, Azərbaycan türklərinin başına açılan müsibətlər gündəmə gətirilməli və Azərbaycan türklərinin haqq səsi dünya ictimaiyyətinə çatdırılmalıdır. Erməni vəhşilikləri unudulmamalıdır.

E.Bedir son olaraq vurğulayıb ki, inanıram ki, biz möhkəm iradəyə sahib olan Prezident İlham Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində mütləq ata babalarımızın doğulub boya-başa çatdığı torpaqlara qayıdacağıq. O günü görmək ən böyük arzularımdan biridir.

Esmira Yazkan ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə müxbiri.